

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 63 (23.705)

9 aprel 2021-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl Osaymini qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev "Dostluq" ordenini Yusif bin Əhməd əl-Osayminə təqdim edib.

Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstəyinə görə İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə minnətdarlığını bildirib.

Ölkəmizin başçısı qeyd edib ki, münaqişə Azərbaycan tərəfindən birtərəfli qaydada həll olunub. 44 günlük müharibə nəticəsində ölkəmiz torpaqlarının 30 il davam edən və bir milyondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğala son qoyub. Ermənilərin bütün şəhərləri, kəndləri, tarixi və dini məkanları, məscidləri, qəbiristanlıqları dağıtması islamofobiyanın, Azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Dövlətimizin başçısı artıq yenidənqurma işlərinin planlaşdırılmasından danışıb, İslam dünyasından olan qardaşlarımızın gəlib onların bizim tarixi irsimizə nə etdiklərini və yenidənqurma prosesini görməsini istədiyini bildirib.

Baş katib Yusif bin Əhməd əl-Osaymin Prezident İlham Əliyevə təşəkkür edib, hər dəfə Bakıya səfərə gələndə, hər tərəfdə yenilik və inkişafın şahidi olduğunu deyib, böyük Qələbə münasibətilə təbriklərini çatdırıb.



## "Naxçıvan: dörd fəsildə" kitabının təqdimatı olub





*Aprelin 8-də "Saat Meydanı" turistik istirahət mərkəzində Azərbaycan və ingilis dillərində nəşr olunmuş "Naxçıvan: dörd fəsildə" kitabının təqdimat mərasimi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli kitabın müəllifinə və nəşrində əməyi keçənlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəkkürünü çatdırmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir, sosial-iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində uğurlar qazanılır. Muxtar respublikada aparılan geniş quruculuq işləri və yaradılan müasir infrastruktur yaradıcı insanlar üçün geniş mövzu seçimidir. Müstəqilliyin ilk illərində Naxçıvanla bağlı məlumat toplamaq istədikdə, məhdud sayda ədəbiyyat və kitablara müraciət olunurdu. Lakin müstəqillik illərində Naxçıvanın tarixi, mədəniyyəti, təbiəti, bu ərazidə min illər ərzində xalqımızın formalaşmış milli dəyərlər və adət-ənənələr sistemi geniş öyrənilmiş, beynəlxalq simpozium və konfranslar keçirilmiş, nəticədə, Naxçıvanşünaslıq mühüm elmi istiqamət kimi müəyyənləşdirilmiş, minlərlə sanballı kitab və ensiklopediyalar nəşr olunmuş, tədqiqat əsərləri yazılmışdır. Nəşr olunmuş kitablar tariximizi, milli dəyərlərimizi və Naxçıvanın müasir inkişafını öyrənmək üçün dəyərli elmi mənbələr olmaqla yanaşı, həm də muxtar respublikanın kompleks şəkildə tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Ülvi Hüseynli demişdir ki, bir yer haqqında kitab yazılanda, ilk növbədə, həmin ərazinin tarixinə, təbiətinə, dəyərlər sisteminə, ən əsası isə müasir inkişafına daha çox diqqət yetirilir. Bu gün müasir Naxçıvan zəngin tarix-mədəni irsi, təbiəti və kompleks inkişafı ilə ölkə və dünya müəlliflərinin diqqətini cəlb edir. Yüksək tərtibatla və min tirajla nəşr olunmuş "Naxçıvan: dörd fəsildə" kitabı da, bu mənada, mühüm əhəmiyyətə malikdir. Kitab oxuculara qədim diyar haqqında geniş məlumat verməklə yanaşı, həm də yüksək peşəkarlıqla çəkilən fotoşəkilləri ilə vizual tanışlıq imkanı yaradır. Kitabı oxuyanlar Naxçıvanın gözəlliklərini dörd fəsildə görəcək, qədim tarixi abidələri, müasir inkişafı, iqtisadiyyatı və sosial həyatı ilə yaxından tanış olacaqlar. Müəllif kitabda Naxçıvanı öz yaradıcı təxəyyülü və yanaşması ilə təqdim etməyi bacarmışdır. Məlumat və fotoşəkillərin ahəngdar yerləşdirilməsi, Naxçıvan gözəlliklərinin poetik dillə təqdim olunması kitabın təsir gücünü daha da artırır. Eyni zamanda Azərbaycan və ingilis dillərində nəşr olunması kitabı daha böyük oxucu kütləsi üçün əlçatan etmişdir. "Naxçıvan: dörd fəsildə" kitabı Naxçıvanşünaslığa töhfə olmaqla yanaşı, həm də turizm sahəsində çalışanlar, eləcə də ali məktəblərin Turizm və otelçilik ixtisasının müəllim və tələbələri üçün dəyərli vəsaitdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, müstəqillik illərində muxtar respublikada çox sayda kitablar, monoqrafiyalar, albom-kataloqlar nəşr olunaraq geniş ictimaiyyətə təqdim edilib. Tarixi yazmaq tarixi yaratmaq qədər çətin və şərəflidir. Ziyalıların və elm işçilərinin də qarşısında duran əsas vəzifə yaradılan tarixi tədqiqat obyektinə çevirərək mahiyyətini ortaya çıxarıb yazmaq, geniş şəkildə təbliğ etməkdir. Bu mənada, yüksək poliqrafik keyfiyyətdə hazırlanan "Naxçıvan: dörd fəsildə" kitabı da elmi tutumu və çoxcəhətli fotoları ilə diqqəti cəlb edir. Nəşrin ön sözünü yazan akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi, Naxçıvan elə bir diyardır ki, çoxcəhətli əlamətləri ilə hər kəsin marağına hakim kəsilir. İlk növbədə, ona görə ki, Naxçıvan Dədə Qorqud yurdudur, oğuz torpağıdır. Muxtar respublikamız çox zəngin landşaft quruluşuna malikdir, yayı isti, qışı sərtdir. Bütün bu məziyyətlər qədim diyarımızda unikal təbiətin yaranmasına, buna uyğun tarix və mədəniyyət abidələrinin formalaşmasına öz təsirini göstərmişdir.

Kitabda yer alan şəkilləri ayrı-ayrılıqda təhlil edən akademik İsmayıl Hacıyev qeyd edib ki, yeni nəşrdə, ilk növbədə, bütün fəsillərdə Naxçıvanın ecazkar təbiətinin, tarixi-mədəni abidələrinin fotoları öz əksini tapıb. Yekun hissədə də qeyd edildiyi kimi, oğuz yurdunun təbiətinin sözlə müfəssəl şəkildə ifadəsi çətin olduğu kimi, onu fotoların dili ilə də tam dolğun formada geniş oxucu kütləsinə çatdırmaq asan deyil. Ümumilikdə, "Naxçıvan: dörd fəsildə" kitabında yer alan şəkillər adi gözlə görünməyən, diqqət yetirilməyən nüansları ortaya çıxarmaqla özünəməxsusluğu, fundamentallığı ilə seçilir və Naxçıvanın turizm potensialının, tarixinin, mədəniyyətinin təbliğində əvəzsiz rol oynayır.

Turizm Departamentinin direktoru Əkbər Novruzov qeyd edib ki, Naxçıvanda turistlərin cəlbi baxımından yaradılmış infrastrukturun və geniş turizm potensialının təbliği istiqamətində ardıcıl işlər görülür, turistlərin sorğuları cavablandırılır, bukletlər, turist xəritələri hazırlanır, tanıtım işləri həyata keçirilir. Təqdimatı olan "Naxçıvan: dörd fəsildə" kitabı da təbliğat-təşviqat sahəsində görülən işlərin davamı olmaqla yanaşı, muxtar respublikanın turizm sektoru üçün də mühüm töhfədir.



Naxçıvanşünaslıq Mərkəzinə, ali təhsil müəssisələrinə, ziyalılara və ictimaiyyət nümayəndələrinə, turizm sektorunda çalışanlara "Naxçıvan: dörd fəsildə" kitabı təqdim olunub.

Tədbir iştirakçıları yeni kitab və nəşrdəki fotoşəkillərdən ibarət sərgi ilə tanış olub, Naxçıvanın turizm potensialından bəhs edən filmə baxıblar.

**"Şərq qapısı"**

## "Naxçıvan Karqo" şirkəti sürətli poçt xidmətlərinin göstərilməsi üçün xüsusi lisenziya ilə təmin edilib



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən "Naxçıvan Karqo" Məhdud Məsuliyyətli Cəmiyyətinə sürətli poçt xidmətlərinin göstərilməsi üçün müvafiq lisenziya verilib. Nazirliyə daxil olan müraciətə əsasən sənədlərə komissiyada baxılmış və müvafiq araşdırma aparıldıqdan sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətlərinin göstərilməsi Qaydaları"nda tələb olunan şərtlərin ödənildiyi müəyyən edilib. Komissiya tərəfindən "Naxçıvan Karqo" MMC-yə rabitə xidmətləri növünün sürətli poçt xidməti alt növünü həyata keçirmək üçün xüsusi lisenziya verilməsinə dair qərar qəbul edilib.

"Naxçıvan Karqo"nun Naxçıvan şəhəri ilə yanaşı, yanğın təhlükəsizliyi və videomüşahidə sistemləri ilə təmin olunmuş Şərur, Ordubad və Kəngərli rayonlarında 3 saxlanma anbarı vardır, çatdırılma və kuryer fəaliyyəti üçün 2 yük avtonəqliyyatı vasitəsilə daşınmalar həyata keçirilir. Müştərilərə daha yüksək xidmət göstərmək üçün malların qəbulu, daşınması və ünvana çatdırılması ən sürətli üsullarla həyata keçirilir.

"Naxçıvan Karqo"nun əməkdaşı bildirib ki, fəaliyyətləri dövründə qaydalarda tələb olunan şərtləri yerinə yetirəcək, müştərilərə daha yüksək xidmətlər göstərməyə çalışacaq, sürətli poçt xidmətləri imkanlarını daha da genişləndirəcəkdir.

Həyata keçirilən tədbirlər muxtar respublikada bundan sonra da sürətli poçt xidmətlərinin daha təkmil formada göstərilməsinə və inkişafına öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Ölkəmizdə dövlət siyasətinin tərkib hissəsini təşkil edən abadlıq, quruculuq işləri muxtar respublikamızda da günümüzün reallığıdır. Ardıcıl olaraq həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq tədbirləri hesabına diyarımızın ucqar və sərhəd kəndləri gözəl, abad, müasir yaşayış məntəqəsinə çevrilib. Bu il fevral ayının 5-də Ordubad rayonunun bir-birinə qonşu olan Nüsnüs və Yuxarı Əndəmic kəndlərində istifadəyə verilən yeni sosial obyektlər məskunlaşmanın artmasını, insanların həyat səviyyəsinin yaxşılaşmasını təmin etməklə bərabər, diyarımızın inkişafına, dövlət-xalq birliyinin möhkəmlənməsinə, kənd turizminin inkişafına da müsbət töhfələrini verir. Biz də Yuxarı Əndəmicdə həmin gün istifadəyə verilmiş kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası ilə tanış olduq, bu yaşayış məntəqəsindəki yenilikləri sakinlərin dilindən dinlədik.*

*Müasirləşən kəndlərimiz*

# Sabaha qayğı Yuxarı Əndəmicin timsalında

İlk növbədə, bu yurd yerinin ziyalısı Əyyar Səfərovla həmsöhbət oluruq. Kəndin tarixinin qədimliyindən danışan müsahibim deyir ki, Yuxarı Əndəmicin əhalisi qədim zamanlarda daha çox dağətəyi yerlərdə məskən salıblar. Torpaqlardan, ancaq əkin, öz yaşayışlarını təmin etmək üçün istifadə edib, əkinçiliyi, bağçılığı, meyvəçiliyi, heyvandarlığı inkişaf etdiriblər. Əhalinin sayı artdıqca, tələbat böyüdükcə kənd sakinləri torpaq sahələrində evlər tikməyə başlayıblar. Kənd, beləcə, yavaş-yavaş böyüyüb, məskunlaşma artıb. Kəndin əvvəlki adı Yuxarı Əndəmiç olub, 2003-cü ildən Yuxarı Əndəmic adlanıb. Bu gün Əndəmic "Azərbaycanın incisi" sayılan Ordubad rayonunun gözəl təbiəti, meyvəli bağları, sərin sulu bulaqları, təmiz havası, torpağına bağlı zəhmət adamları, ziyalıları ilə seçilən, milli-mənəvi dəyərləri qoruyub yaşadan kəndlərindən biridir. Kəndimiz Dübəndi çayının üzərində yerləşir. Əhali bu çaydan əkilən torpaq sahələrini suvarmaq, çay çeşmələrindən isə içməli su kimi istifadə edirlər. Dübəndi çayı kəndi iki yerə bölür. "Güləman" adlanan hissədə daha çox əkin sahələri, kəndin əsas hissəsində isə yaşayış binaları, həyətyanı təsərrüfat sahələri yerləşir. Əndəmic kəndi qədimdən türklərin yaşadığı ərazi olub, adının mənası da zəhmət çəkən, zəkalı insanların yaşadığı ərazi deməkdir. Bir də bu kəndin adı "üç ev" mənasını verir. Bu da onunla bağlıdır ki, "Güləman" adlandırdığımız yerdə əvvəllər yaşayış məskəni olub, orada bir neçə ailə yaşayıb, əkinçilik, heyvandarlıqla məşğul olublar. Bu gün də eyni ərazidə həmin uçuq tikililər qalır.

Müsahibim bildirir ki, Yuxarı Əndəmic kəndi həm arxeoloji, həm də memarlıq abidələri baxımından zəngindir. Yuxarı kənd qəbiristanlığı XVI-XIX əsrlərə aid tarixi-arxeoloji abidədir. XIV-XVI əsrlərə aid Güləman məscidi insanların müqəddəs ziyarətgah, pir yeridir. XVIII əsr memarlıq abidəsi Meydan məscidi kəndin mərkəzində yerləşir. Sovetlər dövründə bu məscid anbara çevrilib, dini kitablar, hər şey məhv edilib. Sonralar kənd əhalisinin köməkliyi ilə yenidən, əsaslı şəkildə qurulub, dini ibadətlər və mərasimlər üçün hər cür şərait yaradılıb. XIX əsr memarlıq abidəsi olan Yuxarı küçə məscidi əvvəlki görkəmi saxlanılmaqla yenidən təmir və bərpa





edilib, bu gün hüzr mərasimlərinin keçirilməsi üçün də istifadə olunur. XVIII-XIX əsrlər memarlıq abidəsi olan Süd məscidinin yanından süd çeşməsi axır. Dağın içindən çıxan çeşmə möcüzədir, hamını təəccübləndirir. Çeşmənin suyu haradan mayalanıb gəlir, – bu, bir sirdir. Kəndimizdə əsrlərlə yaşı olan 2 kəhriz vardır. Yuxarı kəhrizin 8, Kərim çeşməsinin 16 quyusu vardır. Bu kəhrizlərin suyu 20 metrdən çox dərinlikdən quyularla gəlir. Yuxarı Əndəmicdə Güləman məscidi ilə üzbəüz, çayın kənarında qədimdən su dəyirmanı olub. Vaxtilə Baba kişi işlətdiyi üçün bu dəyirman "Babanın dəyirmanı" adı ilə tarixə düşüb. Görkəmli publisist, dramaturq Əbülfəz Qasımovun "Mənim çörəkli dünyam" povestində ondan geniş bəhs olunur. Xüsusilə müharibə vaxtı Ordubad şəhərinin özündən, kəndlərindən arpa, buğda gətirib bu dəyirmanda üyüdüb, dolanışıqlarını təmin ediblər.

Kəndin müasir görkəmindən danışan müsahibim qeyd edir ki, bu gün Yuxarı Əndəmic dövlətimizin qayğısı ilə abadlaşıb, müasir kəndə çevrilib. Yollara asfalt döşənib, insanların rahatlığı təmin olunub, üçmərtəbəli kənd mərkəzi istifadəyə verilib. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, mədəniyyət evi, statistika otağı fəaliyyət göstərir. Beləliklə, kənd sakinləri rayona getmədən lazımi sənədləri buradan ala, kommunal xidmət haqlarını ödəyə, kitabxanadan istifadə etməklə asudə vaxtlarını səmərəli keçirə bilirlər. Həmçinin kənddə xidmət mərkəzi də tikilib. Yuxarı Əndəmic-Nüsnüs avtomobil yolu abadlaşdırılıb, insanların rahat gediş-gəlişi təmin olunub, rayon mərkəzi və digər kəndlərlə əlaqəmiz təmin edilib. Bütün bu yaradılanlar kəndin simasını gözəlləşdirib, insanlara böyük sevinc hissi, yaşayıb-yaratmaq əzmi bəxş edib. Bu gün dövlətimizin qayğısı ilə kəndimizdə insanların elektrik, qaz, su, telefon, internet xidməti ilə bağlı heç bir problemi yoxdur. Muxtar respublika rəhbərinin qayğısı ilə həyata keçirilən bütün bu abadlıq işləri, xidmət sahələri – hamısı kənd sakinlərinin həyat şəraitinin yaxşılaşmasına, sosial problemlərinin həllinə, onların məşğulluğunun artırılmasına xidmət edir. Onu da deyim ki, Əndəmicin füsunkar təbiət mənzərələri, tarixi tikililəri buraya turistləri də cəlb edir, digər ölkələrdən qonaqlar kəndimizə gəlir, qalır və gəzirlər.

Sözün qısası, bu gün kəndimizdə yaradılan şərait dövlətimizin, qurucu rəhbərimiz Ali Məclis Sədrinin kənd adamlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Kəndimizin sakinləri, ziyalılarımız adından muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

Öyrənirik ki, uca dağların qoynunda yerləşən Yuxarı Əndəmicdə insanlar çox zəhmətkeşdir, əkib-becərir, bağ-bağçalar salır, müxtəlif növ meyvə ağacları yetişdirir, əkinçiliklə, heyvandarlıqla, arıçılıqla, limonçuluqla məşğul olurlar. Həmsöhbət olduğumuz təsərrüfatçı Qurban Məmmədov da onlardan biridir. Müsahibim kənddə qurulub-yaradılanlardan sevinclə, qürurla danışır. Onun dediklərindən:

– Kəndimizin dünənini yaxşı xatırlayıram, bu gün ötən dövrün çətinliklərindən heç bir əsər-əlamət qalmayıb, bütün məsələlər öz həllini tapıb. Məhz bunun nəticəsidir ki, kəndli də öz torpağının sahibinə çevrilib, ona bağlanıb, əkib-becərir, öz məhsulunu əldə edir, rahatlıqla satışa çıxara bilir. Uzun illərdir, heyvandarlıqla məşğulam. İribuynuzlu və xırdabuynuzlu heyvan saxlayıram. Hazırladığımız ağartı məhsullarını istifadə edir, pay verir və sata bilirik. Müsahibim deyir ki, Əndəmicdə limonçuluq geniş yayılıb. Bilirsiniz ki, Ordubad limonu görünüşü, rəngi, dadı, tamı və xoş ətri ilə seçilir. Havanın, suyun saf və təmiz, torpağın isə faydalı elementlərlə zənginliyi limonu da qiymətli edib. Həmçinin bizim kənddə payızın gözəl meyvəsi xurma da yetişdirilir. Onun həm təzəsindən, həm də qurudulmuşundan istifadə edirik. İndi səfalı yaz gəlib. Torpağın oyanan, şumlanan, əkilən vaxtlarıdır. Odur ki, vaxtımızın çox hissəsi əkin sahələrində işləməklə keçir, bundan da çox xoşbəxtik, çünki əminik ki, çəkdiyimiz zəhmət hədər getməyəcək, şirin bəhrəsini verəcək.

Kənddə olarkən həkim ambulatoriyasına da baş çəkdik. Burada 40 ildən çoxdur ki, həkim işləyən Münəvvər Bəhlulova ilə həmsöhbət olduq. O bildirdi ki, muxtar respublikada yeni səhiyyə ocaqlarının inşası insanların sağlamlığının qorunması üçün geniş imkanlar açıb. Kəndimizdə istifadəyə verilən həkim ambulatoriyası da insan amilinə verilən dəyərin daha bir ifadəsidir. Ambulatoriyada hər cür şərait yaradılıb. Əvvəllər şəraitimiz yaxşı deyildi. Bir otağımız vardı, qışda isidə bilmirdik. İndiki şəraitimiz çox gözəldir. Ambulatoriyada baş həkim, stomatoloq üçün kabinə, palata, peyvənd, qeydiyyat otaqları, aptek vardır. Müəssisə lazımi tibbi avadanlıqlarla təchiz olunub, eyni zamanda istilik sistemi quraşdırılıb. Buradakı aptek kənd əhalisinin dava-dərmana olan ehtiyacını ödəyir. Əvvəl dərman almaq üçün rayon mərkəzinə gedən kənd sakinləri bu gün lazımi dərmanları buradan asanlıqla əldə edə bilirlər. Biz də çalışırıq ki, kənd sakinlərinin sağlamlığı üçün əlimizdən gələni edək.

Bu gün muxtar respublikamızın hər bir yaşayış məntəqəsində yaradılan xidmət mərkəzləri həm məşğulluğun təmin olunmasında, həm də ailə təsərrüfatları üçün geniş imkanlar açır. Yuxarı Əndəmicdə yaradılan xidmət mərkəzi də onlardan biridir. Buradakı bərbərxana, gözəllik salonu, ət satışı, ərzaq və təsərrüfat malları mağazaları, dərzi yeri ilə tanışlıq zamanı mağaza sahibi Elməddin Qasımovla həmsöhbət oluruq. O deyir ki, mağazamızda, əsasən, yerli, xüsusilə də ailə



təsərrüfatları tərəfindən istehsal olunmuş məhsulların satışına üstünlük veririk. Həmçinin burada digər xidmət sahələrinin fəaliyyəti üçün də nümunəvi şərait yaradılıb, kəndin 6 sakini işlə təmin olunub. Bütün bunlar kənd əhalisinin rahatlığına, yaşayışının təmin olunmasına əlverişli imkanlar açır. Yaradılan şəraitdən istifadə edərək kəndin inkişafına töhfə vermək isə hər birimizin borcudur.

*Beləliklə, muxtar respublikamızda daha bir kəndə yenilik, gözəllik bəxş edildi. Müdriklərdən biri deyir ki, əsas məsələ gələcəyi uzaqdan görmək deyil, onu qurub yaratmaqdır. Qurulub, yaradılan isə güclü iradənin, əzmkarlığın, zəhmətin, qabiliyyətin nəticəsində ortaya çıxır və tarixdə öz yerini tapır, Vətəninin tərəqqisinə, insanlığa xidmət edir.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Bu gün yeni yaranan ailə təsərrüfatları içərisində ənənəvi olmayan fəaliyyət sahələri ilə məşğul olanlar da vardır. Bu isə daxili iqtisadiyyatda şaxələnmənin təmini üçün çox vacibdir. Belə ailə təsərrüfatlarından biri də ötən il Şahbuz rayonunun Badamlı qəsəbəsində fəaliyyətə başlamış və əsasən, müxtəlif bitkilərin yağlarının çıxarılması, təbii tərkibli sabun istehsalı ilə məşğul olan ailə təsərrüfatıdır.***

*Ailə təsərrüfatlarımız*

# Sağlam həyat tərzini təbliğ etməyə çalışırıq

Təsərrüfat sahibi Vüsal Salahovla söhbətimizdə bu işin incəliklərini, onu bu sahəyə gətirən marağın nə olduğunu öyrənməyə çalışdıq. Müsahibimiz bildirdi ki, artıq 20 ildən çoxdur ki, qardaş Türkiyə Respublikasında bu sahə üzrə çalışıb. Sağlam həyat tərzinin təbliği, eyni zamanda müxtəlif xəstəliklərin müalicəsi sahəsində fəaliyyət göstərən tanınmış firmada uzun müddət çalışması ona işi dərindən öyrədib. Daha doğrusu, öyrənmək üçün özü səy göstərib. Müxtəlif bitki yağlarının qəbulu, onlardan məlhəm kimi istifadə olunması onu bu işə çox həvəsləndirib. Həmçinin bitki tərkibli təbii sabunların məişətdə geniş istifadəsi həmsöhbətimizə bu sahənin geniş istehlakçı kütləsinə malik olduğunu hiss etdirib. Türkiyə və bir çox dünya ölkələrində təbii tərkibli məhsulların istehsalının hər il daha da genişləndiyini deyən Vüsal Salahov bu işi Naxçıvanda da görməyə həvəslənib. Beləliklə, ötən ilin yayında yaşadığı Badamlı qəsəbəsində özünün ailə təsərrüfatını qurub. Onun dediklərindən:

– Maraq və təcrübəm məni bu işi görməyə sövq edib. Çünki maraq olmadan gördüyün işdən həzz ala bilməzsən, sənə yorucu gələr. Təcrübə isə yol veriləcək səhvlərin qarşısını alır. Naxçıvanda bu işi görməyimizin əsas səbəbi odur ki, qoy bizim sakinlər də insan sağlamlığında böyük rol oynayan bu məhsullardan istifadə etmək imkanına malik olsunlar. Nəzərə alaq ki, bu gün bir çox ölkələrdə işbazlar bu sahəni nəzarətdə saxlayırlar. Nəticədə, istehlakçılar çox zaman tərkibi bəlli olmayan, aldadıcı təsir yaradan məhsulları almaq məcburiyyətində qalırlar. Bu isə sonda bütöv bir xalqın sağlamlığını sual altında qoyur. Konkret fəaliyyətə gəldikdə isə onu deyə bilərəm ki, əsasən, müxtəlif bitki toxumlarının (quru meyvələrin) yağlarının çıxarılması ilə məşğuluq. Bunun üçün müvafiq avadanlığımız da var. Çörəkotu, Hindistan cəvizi, balqabaq toxumu, badam, fındıq və sairdən yağları bu avadanlıq vasitəsilə alırıq və ən əsası yağalma prosesi soyuq sıxma üsulu ilə aparıldığından əldə olunan yağların tərkibi təbii qalır. Həmçinin müxtəlif doşab çeşidləri, xüsusilə keçibuynuzu doşabı ən çox satdığımız məhsullardandır, yaxın gələcəkdə üzüm doşabının istehsalına da başlayacağıq.



Vüsal Salahovdan təbii sabunların hazırlanma prosesi haqqında məlumat verməyini də xahiş edirik. Bildirir ki, hazırda təsərrüfatda tərkibi müxtəlif təbii yağlardan təşkil olunmuş çox çeşiddə sabunlar hazırlayırıq. Sabunlar da, həmçinin soyuq sıxma (yəni yüksək temperatura məruz qalmadan) üsulu ilə hazırlanır. Tərkibi müxtəlif təbii bitki yağlarından təşkil olunmuş sabunlar həmin yağların sodium-karbonat məhlulu ilə birləşməsindən dondurularaq əldə olunur. Qəlib istifadə olunmadan alınan tərkib kəsmə yolu ilə parçalara bölünür və buna görə də sabunların kənarı və ya üz hissələri hamar olmaya bilər. Sonra isə kəsilmiş hissələr kağız qablaşdırılmaya cəlb olunur. Müxtəlif dəri xəstəlikləri, saç tökülməsi, dərinin təravətinin qorunması və sair səbəblər üçün istifadə edilən bu sabunlarda kimyəvi qoxu ekstraktları da istifadə olunmur. Buna görə də həmin sabunlar sənaye üsulu ilə hazırlanmış sabunlardan fərqli olaraq qoxulu olmurlar və öz təbii qoxuları da qısa müddətdə çəkilib gedir. Dediklərimiz rəngləndirici ekstraktlara da aiddir.

Söhbət zamanı onu da öyrəndik ki, Vüsal Salahov yeni sifariş etdiyi digər bir avadanlığın yolunu gözləyir. Hazırda istifadə etdiyi avadanlıq bitki toxumlarının, sadəcə, yağını çıxarırsa, yenisində həm əzmə, həm də yağçıxarma funksiyaları var. Bu da təsərrüfat sahibinə gələcəkdə badam əzməsi, fındıq əzməsi kimi məhsulların əldə olunmasına, onlardan müxtəlif qarışıqların (məsələn, bal ilə) hazırlanmasına imkan verəcək ki, bu da onların həm müalicə məqsədli, həm də bir qida kimi (səhər yeməyində) istifadəsinə imkan verəcək.

Həmsöhbətimiz bu işə başlayandan aidiyyəti dövlət qurumlarının ona göstərdiyi dəstəyi də dilə gətirir və məhsulların hazırlanması, onların marketinq qaydalarına uyğun pərakəndə satış məntəqələrində satışının təşkilinə görə minnətdarlığını bildirir. Gələcək planları haqqında isə onu deyir ki, daha çox növ və çeşiddə məhsul istehsal etmək, istehsalı artırmaq, yerli məhsulların ixracına dəstək olmaq qarşıda duran vəzifələrdəndir. Biz də, öz növbəmizdə, ona işlərində uğurlar arzulayıb, satış mərkəzlərində bu ailə təsərrüfatının daha yeni məhsullarını görmək ümidi ilə oradan ayrılırıq.

✍ **Səbuhi HƏSƏNOV**

# Naxçıvan bilik və intellektual iqtisadiyyat yolunda

***Bilik və intellektual güc hər bir cəmiyyətin inkişafının aparıcı faktorlarındandır. Biliyə sahib olmaq isə insanın şüurlu fəaliyyətinin əsasında durub, rahat yaşayış üçün lazım olan maddi nemətlərin istehsalının ən vacib şərtidir. Bu mənada, müasir informasiya erasında davamlı iqtisadi artıma nail ola bilmək üçün hər hansı bir fəaliyyət sahəsində innovativ addımların qazandırdığı inkişaf tempi özündən sonrakı mərhələdə cəmiyyətin digər sahələrində də irəliləyiş yaradır.***

Müasir cəmiyyət yeni ideyalara əsaslanan innovativ dəyişikliklərə çox həssasdır. Əgər innovasiya bir tərəfdən insan həyatına gətirdiyi rifah, səmərədirsə, digər bir tərəfdən o, qlobal rəqabətdə davamlılıq, böyümə və strateji hədəflərə çatmaqdan ibarətdir. Strateji hədəfi olmayanın sonunun özündə deyil, başqalarının əlində olması bu gün iqtisadi təhlükəsizlik məsələlərində dünyanın çox gerisində qalmış ölkələrin timsalında aydın görünür. Ona görə də iqtisadi müstəqillik aspektindən baxdıqda innovativ ideyalara rəğbət bəsləyən bir cəmiyyətin istənilən təbii-texnogen çətinliklərin öhdəsindən asanlıqla gəldiyini, kənardan yaranan hər hansı təhlükələri qısa müddətdə neytrallaşdırdığını görməkdəyik.

Müasir Azərbaycan Respublikası əhalisinin yüksək mədəni-intellektual səviyyəsi, zəngin tarixi keçmişi və gələcəyə baxışları ilə hər cür mütərəqqi yeniliyi alqışlayan, keçmişdə yaşadığı təcrübələrdən yaxşı dərs çıxararaq, güclü liderinin arxasınca birləşib möhkəm iqtisadiyyata və monolit sosiuma malik bir cəmiyyət quruculuğuna malikdir. Müstəqillik illərində dövlətimizin ən böyük problemi olmuş torpaqlarımızın işğalına son verilməsi xalqımızda görünməmiş ruh yüksəkliyi və güclü inam yaratmışdır. Bu güc elm və təhsilin də qarşısına elə böyük vəzifələr qoyub ki, artıq heç kim ölkəmizin, hətta yaxın keçmişdəki uğurları ilə kifayətlənmədən sürətlə region birincisindən dünya liderləri sırasına qatılacağına şübhə etmir. Bu gün kosmik klub üzvü olan Azərbaycanın G20 zirvə toplantısına dəvət alması, ölkəmizin irimiqyaslı enerji layihələrinin, tranzit koridorların mərkəzinə çevrilməsi cəmiyyətin bütün sahələrində hər cür yeniliyi bir sosial sifariş halına gətirib. Bu mənada, ölkəmizdə təhsil, səhiyyə, sənaye, kənd təsərrüfatı kimi aparıcı sahələrdə yaradılmış müasir infrastruktur və maddi-texniki baza sayəsində əldə olunan iqtisadi uğurlarla yanaşı, modern silahlarla təmin olunmuş müzəffər Ordumuzun 30 illik işğal problemini 44 gündə sona çatdırması da sürətlə yenilənən Azərbaycanın şanlı zəfəridir.

Zaman isə yerində saymır. Başqa sözlə, müasir dövrdə bircə günlük arxayınçılıqdan yaranan gecikmənin fəsadlarını islah etmək sabah ongünlük əziyyətlər bahasına başa gələ bilər. Ona görə də gələcəyimizin etibarlı əllərdə olması üçün yenilikçi gənclərin formalaşdırılması, dünya ilə rəqabət apara biləcək insan resurslarının yetişdirilməsi dövlətimizin ən prioritet məsələləri arasında durur. Müasir informasiya-kommunikasiya texnologiyalarının həyatımızın hər sahəsinə sürətlə nüfuz etdiyi, müasirləşdirilmiş təhsil infrastrukturuna malik olan və elmi nailiyyətlərin istehsala tətbiqində mühüm nəticələr qazanmış Naxçıvan Muxtar Respublikası da ötən dövrdə innovativ iqtisadiyyata keçid sahəsində öz müsbət təcrübəsini ortaya qoyub.

Naxçıvan Muxtar Respublikasında innovativ iqtisadiyyata keçid regionun müstəqillik illərində keçdiyi inkişaf yolunun məntiqi nəticəsidir. Ən zəruri insan tələbatlarının ödənilməsi üçün lazım olan əksər resursların məhdudluğu, bununla yanaşı, əhali istehlakının daim artım meyli regionda innovativ ideyalara əsaslanan cəsarətli layihələrin həyata keçirilməsinin arxa zəminini formalaşdırmışdır. Ötən dövrdə dövlətimizin də dəstəyinə arxalanmaqla Naxçıvanda ərzaq məhsulları və tikinti materialları istehsalı, enerji təminatı, maşınqayırma, təhsil, turizm, sağlamlıq və sürətli rabitə kimi sahələrdə həyata keçirilən modern layihələrin bəhrəsi nəticəsində muxtar respublikanın ixracat potensialı artaraq qeyri-neft sektoru üzrə ölkəmizin xarici ticarət balansına müsbət saldo qazandırmaqdadır. Bu gün artıq naxçıvanlı alim və tədqiqatçı, müəllim və həkim, sahibkar və menecerlər dünyadakı innovativ dəyişikliklərin məşğul olduğu sahədəki tətbiqindən əlavə, özünün də müəllifi olduğu yeni ideyaların uğuruna ciddi bir şəkildə inanmaqdadır. Bu gün Naxçıvanın ali məktəblərində təhsil alan startapçı tələbələrin sabah impakt faktorlu beynəlxalq jurnallarda ciddi elmi məqalələr müəllifi ola bilməsi artıq mümkünsüz bir təsəvvür deyil, günün reallığıdır. Yaxud 15-20 il əvvəl regionun aparıcı ali təhsil ocağı olan Naxçıvan Dövlət Universitetindəki gənc tədqiqatçılar yaxın xaricdə dərc olunmuş bir elmi məqaləsi ilə sevinirdilərsə, bu gün onlar ABŞ və Avropa ölkələrinin nüfuzlu elmi nəşriyyatlarında redaksiya üzvü kimi ciddi elmi dairələr tərəfindən tanınırlar. Bütün bunlar isə elmin, yeniliyin cəmiyyətimizin həyatına nə qədər diffuziya etdiyinin bir göstəricisidir.



İnkişaf edən hər bir cəmiyyətin elm, innovasiya və yenilik qapısı universitetlərdir. Məhz universitetlərdə yaradılmış elmi nəticələr təhsil prosesində gələcəyin mütəxəssisləri olan gənclərə öyrədilərək zaman içərisində bütün cəmiyyətin sərvətinə çevrilir. Elmi mühit, sağlam rəqabət və yüksək prinsipiallıq ali məktəblərin əsas fəaliyyət vektoru kimi tarix boyunca cəmiyyətin inkişafının sonrakı mərhələlərdə təkcə elm və təhsil deyil, digər sahələrdə də qarşıya qoyulan vəzifələri müəyyənləşdirməkdə əsas kriteriyalar olub. Bu mənada, Naxçıvan Dövlət Universiteti muxtar respublikamızın inkişafının yeni – innovativ iqtisadiyyat mərhələsində həyata keçirdiyi layihələrlə gələcəyin universiteti olmaq yolunda qətiyyətli addımlar atmaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" 2020-ci il 14 dekabr tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığına son dərəcə böyük təsir imkanları yaradacaqdır.

Texnologiyalar Parkı, yaxud qısa olaraq texnopark universitet üçün nə qazandırır? Texnologiya və sənaye cəhətdən yüksək inkişaf etmiş Qərb ölkələrinin təcrübəsinə əsasən onu qeyd edə bilərik ki, texnopark kimi ciddi və elmi əhəmiyyəti yüksək olan quruluşlar təkcə aid olduğu universitetin deyil, həm də ölkənin iqtisadi həyatında xüsusi çəkisi olan və formalaşdırdığı imiclə hər yerdə özünə rəğbət qazanan müəssisələrdir. Bu müəssisələrdə ərsəyə gətirilən innovativ ideyalar tətbiq olunduğu sahənin yüksək dərəcədə inkişafı ilə yanaşı, həm də öz davamçılarının məktəbini formalaşdırmaqla təhsildə yeni bir rəqabət yaradır. Ölkəmizdə ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Universitetində yaradılacaq texnopark da mövcud müsbət ənənələrdən faydalanmaqla gələcəkdə təkcə bu ali təhsil ocağının deyil, muxtar respublikanın bütün təhsil müəssisələrində yeni keyfiyyət standartlarının mənimsənilməsinə, nəzəri biliklərin praktikada daha asan tətbiqinə və son nəticədə, ölkəmizin iqtisadi cəhətdən daha qüdrətli olmasına mühüm töhfə verəcək.

Əli CABBAROV

# Gələcək karyeranın qurulmasında peşəyönümlü xidmət mühüm əhəmiyyət kəsb edir

*Peşə və ya ixtisas seçimi insan həyatının ən vacib mərhələlərindən biridir. Düzgün seçim edilərsə, gələcək həyat, qurulacaq karyera da bu baxımdan daha uğurlu olar. Bu zaman insan həm mənəvi, həm də maddi tərəfdən təmin edilmiş olur ki, bu da ona öz biliyini daha da artırmağa və cəmiyyətə faydalı bir şəxs kimi formalaşmağına zəmin yaradır.*





Peşə və ixtisas seçənin zövqünə, biliyinə, bacarıq və qabiliyyətinə, əmək bazarının tələblərinə uyğun gəldikdə o, həmişə işini sevir, onu həvəslə, zövqlə icra edir. Bu seçim düzgün aparılmadıqda isə insan həmişə özündən, öz peşəsindən, ixtisasından narazı olur. Ya bütün həyatıboyu bu narazılıqlar içərisində yaşayır, ya da öz sahəsini dəyişmək, başqa sahələrə üz tutmaq məcburiyyətində qalır. Əlbəttə, peşəni, ixtisası hər yaşda dəyişmək olar, lakin araşdırmalar illər keçdikcə bu cür dəyişikliklərin daha çətin olduğunu göstərir. Ona görə də formalaşmaqda olan gənc nəsli vaxtında həyata düzgün istiqamətdə hazırlamaq məqsədilə ölkəmizdə həmişə peşə və ixtisas hazırlığına prioritet məsələlərdən biri kimi üstünlük verilib. Çünki bu həm də əmək bazarının müasir tələblərə cavab verən kadrlarla təmin olunması deməkdir. Ona görə də gənclərin müəyyən peşəyə və ixtisasa yiyələnməsi, aldığı biliyin mütəmadi artırılaraq təkmilləşdirilməsi aktual məsələlərdən biri sayılır.

Ümummilli liderimiz Heydər Əliyev də bu məsələyə yüksək əhəmiyyət verərək deyirdi: ***"Hər bir sahənin mütəxəssisi olmalıdır. Hər bir sahənin mütəxəssisi professional təcrübəsi olan adam olmalıdır".***

Qeyd edək ki, bəhs olunan məsələnin muxtar respublikamızda da öz həllini yüksək səviyyədə tapması diqqət mərkəzindədir. Çünki peşəyönümlü məsləhət xidmətləri aktiv məşğulluq tədbirlərindən biridir. Bir məsələ isə, xüsusilə vurğulanmalıdır ki, həmin istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurla başa çatmasını təmin edib. Proqramın icrası dövründə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin əməkdaşları tərəfindən 19425 yuxarı sinif şagirdinə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilib. Bu illər ərzində proqrama əsasən görülən tədbirlər gənclərin müxtəlif sənət və peşələrə yiyələnmələrinə, nəticə etibarilə, onların məşğulluğunun təmin edilməsinə stimul olub.

Bunun davamı kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif ixtisaslar üzrə peşə hazırlığının, ümumtəhsil müəssisələrinin yuxarı siniflərində peşəyönümlü məşğələlərin və ixtisasartırmanın təşkil edilməsinin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulub.

Proqramdan irəli gələn vəzifələrin vaxtında yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin birgə tərtib etdiyi qrafikə uyğun olaraq məktəblərin yuxarı sinif şagirdlərinə peşəyönümlü məşğələlər rayon, şəhər məşğulluq mərkəzlərinin məsul işçiləri tərəfindən davam etdirilir. Şagirdlərə düzgün peşə seçmək üçün nələrə diqqət edilməsi, işəgötürənlər tərəfindən tələb olunan peşə və ixtisaslar barədə məlumatlar verilir.

Gənclər, işaxtaran və işsiz şəxslər belə tədbirlərə cəlb olunmaqla, onlar əmək bazarının cari vəziyyəti və əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar, məşğulluq mərkəzləri tərəfindən göstərilən xidmətlər barədə məlumat alırlar. Onlarla müxtəlif tədbirlər keçirilməklə, təhsil və bacarıqlarına, şəxsi keyfiyyətlərinə uyğun olaraq peşə və ya ixtisas seçiminə, peşə maraqlarının formalaşdırılmasına yönəldilmiş məsləhət xidmətləri göstərilir. Həmçinin gənclərə aktiv məşğulluq tədbirləri barədə də məlumatlar verilir. Bu məşğələlərin təşkilində məqsəd birmənalıdır: gənclərin gələcək həyat yollarını müəyyənləşdirərkən istəklərinə uyğun düzgün qərar qəbul edə bilmələrinə köməklik etmək, peşə və ixtisas seçimi haqqında onlara müfəssəl məlumatlar vermək, onları peşə seçməyə hazırlamaq.

Qeyd olunmalıdır ki, əmək bazarındakı real tələbata uyğun olaraq orta məktəblərdə təhsil alanların peşə, sənət, ixtisas seçimi istər valideynlərin, istərsə də müəllimlərin məsləhətlərindən çox asılıdır. Bu amil nəzərə alınmaqla maarifləndirmə və məsləhət tədbirlərinin təşkili zamanı yuxarı sinif şagirdlərinin peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədilə valideynlərin də bu tədbirlərdə iştirakı təmin edilir, onlarla da söhbətlər aparılır.

Şagirdlərin düzgün peşəyə yiyələnmə və ixtisas seçməsi baxımından muxtar respublikada maarifləndirmə, məsləhət, təlim tədbirləri formasında müxtəlif xarakterli digər tədbirlərin də təşkili diqqət mərkəzində saxlanılır. Bu da, əsasən, təhsil müəssisələrində oxuyanların peşə marağının və qabiliyyətlərinin təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət daşıyır, onlara düzgün seçim etmələrinə yardımçı olur.

Bir məsələni də oxucuların diqqətinə çatdıraq ki, vətəndaşlar yerlərdə fəaliyyət göstərən məşğulluq mərkəzləri ilə əlaqə saxlamaqla iş yerini və əmək rejimini seçmək üçün peşəyönümünə, peşə hazırlığına və yenidən hazırlığa, ixtisasının artırılmasına dair ətraflı məsləhətlər ala bilərlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı yeni Dövlət proqramı gənclərin peşə və ixtisas seçiminə, əhalinin məşğulluğunun təmin olunmasına davamlı dövlət qayğısının ifadəsidir. Belə qayğı həm də müəssisə və təşkilatların, həmçinin özəl sektorun ixtisaslı kadrlarla təminatına öz müsbət təsirini göstərir.

**Yasin ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aparatının rəhbəri***

## Tələbələrin yeni startap layihələrinin təqdimatı keçirilmişdir

*Naxçıvan Müəllimlər İnstitutu İnnovasiya laboratoriyasının təşkilatçılığı ilə "Startap: İnnovativ gələcəyə doğru" mövzusunda maarifləndirici seminar keçirilmiş və tələbələrin yeni layihələrinin təqdimatı olmuşdur.*



Seminarı giriş sözü ilə institutun rektoru Azad Novruzov açaraq startap layihələrinin müasir dövrümüzdə mahiyyəti və əhəmiyyətindən, bu layihələrin elmin, iqtisadiyyatın inkişafındakı rolundan danışmış, tələbələri startapla bağlı layihələrin, təqdimatların təşkilində fəal olmağa çağırmışdır.

Sonra institutun İnnovasiya laboratoriyasının aparıcı mütəxəssisi Səminə Rüstəmova startap layihələri, onların necə tərtib olunması, hansı mərhələlərdən təşkil edilməsi, təqdimatlarının hazırlanması istiqamətində maarifləndirici məlumat vermiş, ölkəmizdə və dünyada məşhur olan belə layihələr haqqında danışmışdır.

Konfransda startapçı tələbələr layihələrini təqdim etmiş, Naxçıvan Müəllimlər İnstitutunun saytında belə layihələrin qəbulu üçün nəzərdə tutulan "İdeya bankı" haqqında məlumat verilmiş, tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

Naxçıvan mətbəxi

# Yaz süfrəsinin ləziz təamı



***Milli mədəniyyətimizin daşıyıcılarından biri olan Naxçıvan mətbəxi bir-birindən ləziz təamlarla zəngindir. Bu diyarın təmiz havası, şəfalı suları, əsrarəngiz təbiəti, bitki örtüyü muxtar respublika mətbəxində də özünü açıq-aydın göstərir. Ona görə də tarixən bu diyarda ekoloji təmiz məhsullardan hazırlanan yemək və şirniyyatların şöhrəti dünyanı dolaşıb. Elə indi olduğu kimi...***

Yaz fəsli gələndə qış uzunu itirdiyimiz immunitetin geri qaytarılması üçün əlimizə fürsət düşür. Bəzilərinin adi yabanı alaq otu bildiyi quşəppəyi, şomu, yemlik, quzuqulağı, cincilim, əvəlik, salmanca, unnuca, çiriş kimi bitkilərdən hazırlanan göy kətəsinin yerini heç bir dadlı qazan yeməyi verə bilməz. Elə biz də ilin bu vədəsində hamının ağız dadı ilə xoşladığı, muxtar respublikamızın hər bölgəsində fərqli şəkildə bişirilən kətə barədə yazmaq qərarına gəldik. Bunun üçün 2019-cu ildə keçirilən “Kətə” festivalının qalibi Şahbuz rayon Aşağı Qışlaq kənd sakini Südabə Məhərrəmova ilə həmsöhbət olduq. Bir neçə dəfədir, festivalda iştirak edən müsahibim deyir ki, kətə Naxçıvan mətbəxinin özünəməxsus dadı və ləzzəti ilə seçilən yeməklərindən biridir. Kətənin hazırlanması ilə bağlı hər bir xanımın öz sirri var, – deyən Südabə xanım onun bişirilməsi haqqında söhbət açır: – Kətəni, əsasən, yaz aylarında, dağlarda bitən ən dadlı pencərlərimizlə hazırlayırıq. Dadı ilə seçilən bitkilərin tərkibi vitamin və minerallarla zəngin olduğu üçün onlardan hazırlanan kətələr insan sağlamlığı üçün çox faydalıdır.

Gəlişimizin məqsədini əvvəlcədən bilən Südabə xanım “Ay qızım, indi ki kətənin sorağına gəlmisən, ləzzətini dadmasan, olmaz! Həm də atalarımız yaxşı deyib, yüz eşitməkdənsə, bir görmək yaxşıdır”, – deyə un, süd, yağ, duz götürərək kətə xəmiri hazırlamağa başlayır. İzah edir ki, kətə bişirmək üçün acıtamlı xəmir yoğururlar. Bunun üçün xəmrədən istifadə edirlər. Kətə üçün bərk xəmir yoğurulmalıdır. Xəmiri yoğurub üstünü basdırandan sonra Südabə xala “Xəmir özünü tutana qədər içi hazırlayaq”,– deyir. Şomu, çiriş, cincilim, quşəppəyi, gicitkən və əvəliyi təmizləyib yuyuruq. Aşsüzəndə suyu bir az süzüldükdən sonra köməkli narın doğrayırıq. Sonra Südabə xalanın göstərişi ilə içərisinə doğranmış soğan, duz, istiot əlavə edirik.

Naxçıvan mətbəximizin dadlı yeməklərindən, Naxçıvanda bişirilən şomu, qarışıq göyərti, çiriş, gicitkən, balqabaq, mərcimək, lobya, cəviz, halvalı, şirin, döymə, dürmək kətələrindən söhbət edə-edə vaxtın necə gəlib keçdiyinin fərqinə varmırıq. Südabə xala xəmirin gəldiyini söyləyib qonşusu Gülsənəm xalanın köməyi ilə kiçik kündələr salmağa başlayır. Bu yerdə nənəmin dediyi sözləri bir daha xatırlayıram ki, elimizin-obamızın mətbəx işləri, bişdüşləri, adətən, mərasim şəklində olur. Kətə bişiriləndə də bir qonşunun həyətində təndir qalanır və digər qonşular köməyə gəlirlər. Özləri ilə hazırlayıb gətirdikləri xəmirdən kətə bişirirlər.



*Naxçıvanda keçirilən “Kətə” festivalı – 2018-ci il*

Südabə xanımın tutduğu kündələri qonşu oxlovla yayır. Mən isə onların üzərinə göyərti qoyub, zərf şəklində bükürəm. Çiy yumurtaya azacıq duru yağ əlavə olunmaqla çaldığımız üzlüyü kətələrin üzərinə çəkirəm. Südabə xala deyir ki, təndirə yapılan kətənin aşağı tərəfi üçkünc formasına salınır. İsti bada yapılan kətənin hər iki üzü qızarır (eyni qaydada sobada da bişirilir).



Söhbət əsnasında öyrəndim ki, dağ pencərlərindən bəziləri əvvəlcədən qaynadılıb sıxılır və yağda qovurulur. Bir az tez bişənlər, məsələn, salmanca pencəri isə doğrandıqdan sonra aşsüzənə tökülür, üzərinə duz səpilir, yuxanın içərisinə qoymazdan əvvəl ovulur və sıxılır.

Hazır bükülmüş kətələrin sacın üzərində, yaxud da qızmar təndirdə bir neçə dəqiqədə bişdiyini deyən Südabə xala onu da vurğulayır ki, sacda bişirilən kətənin xəmirini bir az nazik, təndirə yapılan kətəni isə nisbətən qalın açmaq lazımdır. Təndirdə bişirilən kətənin xəmirini təzə pendirin suyu ilə yoğurub yapmazdan əvvəl, həm təndirin divarlarına, həm də kətənin arxasına duzlu su çiləyəndə, bu, kətənin təndirin badına daha yaxşı yapışmasına kömək edir. Sacda bişirilən kətələrin hər iki üzünü qızartmaq lazımdır. Bişən kətə sacdan götürülür, təndirdən çıxarılır, üstü deşilib içərisinə yağ qoyulur.

Təndirdə bişmiş kətələr buğu çəkiləndən sonra “şırran” deyilən yerdən (kətənin yuxarı hissəsindən yağlamaq üçün bıçaqla azacıq yarılmış yer) kətənin içərisinə kərə yağı əlavə edirik. Südabə xala deyir ki, zövqə görə xama da əlavə olunsa, içərisinə kərə yağı əlavə edilən kətə çox ləzzətli olur. Südabə xaladan öyrənirəm ki, yaylaqda olan qadınlar çox vaxt sacda kətə bişirirlər. Kətə bişirilən sac tərsinə qoyulur. Közün sacdakı kətəni yandırmaması üçün ocaqlar buxarı formasında təmizlənir, qurulur. Belə ocaqda bişən kətənin hər yeri bir formada olur. Sac kətəsi üçün üzlük hazırlanmır.

Südabə xala hazır kətələrdən bir boşqaba qoyub, nəvəsi Damlanı çağırıb onunla qonşuya da göndərdi ki, evdə yaşlı xəstələri var, isti-isti yesinlər. Sonra deyir ki, evdə bişənin, ətri ətrafa yayılır, buna görə də qonum-qonşuya da pay tutarlar ki, onlar da nübar etsinlər. Qızım, bu gözəl adət ana-nənələrimizdən qalıb...

Süfrə başına yığışıb hazırladığımız kətələrdən isti-isti, deyə-gülə, ağız ləzzəti ilə yeyirik. Öyrənirəm ki, kətəni yedikdən sonra rahat həzm olunması üçün ayran içilir. Südabə xala ilə sağollaşıb yola düşürəm...

Bu gün Naxçıvan Muxtar Respublikasında sağlamlıqla, düzgün qidalanmaqla bağlı qədim ənənələrimizə, nəinki ciddi şəkildə riayət edilir, həm də onların təbliğinə geniş imkanlar yaradılır. Bir neçə ildir ki, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən, milli mətbəx ənənələrimizi, dəyərlərimizi əyani formada nümayiş etdirən “Kətə” festivalına da diyarımızın hər bölgəsindən iştirakçılar qatılır. İndiyədək keçirilən festivallarda əcnəbilərin Naxçıvan kətəsinə göstərdikləri böyük maraq bu mətbəx nümunəmizin, nəinki ölkəmizdə, xaricdə də sevildiyini göstərir. Niyə də sevilməsin? Muxtar diyarımızın təbii bitki növləri arasında dad-tamı ilə seçilən yuxarıda adıçəkilən pencər çeşidləri həm də vitamin zənginliyi, insan orqanizminə faydaları ilə tanınır. Əsrlərboyu süfrəmizin bəzəyi olmuş bu nemətlər təbii qidalanma baxımından da əhəmiyyəti ilə seçilir.

Artıq baharın özü ilə gətirdiyi bol ruzi-bərəkət hər addımda duyulur. İlin bu çağında diyarımızın sakinləri təbiətin qoynuna üz tutur, həmin pencərlərdən toplayır, onlardan pencər qovurması, kətə hazırlayır, qohum-əqrəbanın, dost-tanışın da payını ayrıca göndərirlər. Beləliklə, yurdumuzun insanları həm yazın ilk müjdəçisi olan, ekoloji təmizliyi ilə əvəzi tapılmayacaq bu nemətlərdən dadır, həm də əsrlərboyu qorunub saxlanılan milli mətbəx nümunələrimizi yaşadırlar.

✍ **Aytac CƏFƏRLİ**

## Hərbi vəzifəlilərin məşğulluqlarının təmin edilməsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” nın icrası istiqamətində tədbirlər davam etdirilir. Növbəti tədbir dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şahbuz Rayon Şöbəsinin, Naxçıvan Şəhər və Şahbuz Rayon Məşğulluq mərkəzlərinin birgə təşkilatçılığı ilə keçirilib. Məqsəd Azərbaycan Respublikasının ordu sıralarından tərxis olunan hərbi vəzifəlilərin məşğulluqlarının təmin edilməsi ilə bağlı maarifləndirmə işi aparmaq olub.



Əvvəlcə 44 günlük Vətən müharibəsində torpaqlarımızın ərazi bütövlüyünü təmin etmək uğrunda canlarından keçərək əbədiyyətə qovuşan əziz şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, mayor Anar Aqilov tədbirdə çıxış edərək Azərbaycan Respublikasının ordu quruculuğundan, ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərdən, xidmətin səfərbərlik zamanı fəaliyyətindən, Vətən müharibəsi iştirakçılarına göstərilən diqqət və qayğıdan, həmçinin ordu sıralarından tərxis olunan hərbi vəzifəlilərin məşğulluqlarının təmin edilməsindən bəhs edib.

Naxçıvan Şəhər Məşğulluq Şöbəsinin direktoru Elmar Eyvazov və Şahbuz Rayon Məşğulluq Şöbəsinin direktoru Fəxrəddin Bağırov çıxış edərək tərxis olunan gənclərimizə əhalinin məşğulluğunun artırılması ilə bağlı Dövlət proqramı barədə məlumat verib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

✍ **Telli MƏMMƏDOVA**

## Tənha ahıllar ziyarət olunub



Muxtar respublikanın ahıl sakinləri dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunub və bu qayğı ildən-ilə artmaqdadır. Hazırda tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan ahıl vətəndaşlardan 285 nəfərə evlərində, 5 nəfərə isə Ahıllar Evində sosial xidmətlər göstərilir. Yaxın qohumu ilə eyni yaşayış məntəqəsində yaşamayan və kənar şəxslərin qulluğuna ehtiyacı olan tənha ahıllara mütəmadi olaraq evlərində baş çəkilir, zəruri məişət işlərində köməklik göstərilir. Ahıl insanların sağlamlıqlarının qorunması, tibbi reabilitasiyası da diqqət mərkəzində saxlanılır, onlar vaxtaşırı həkim müayinəsindən keçirilir.

Artıq ahıllarla təşkil olunan tədbirlərdə sosial könüllülərin də iştirakının təmin edilməsi ənənə şəklini alıb. Bu tədbirlərin davamı kimi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Şərur rayonunda sosial xidmət göstərilən tənha ahılların evlərinə sosial könüllülərin ziyarətləri təşkil olunub. Könüllülər onlara məişət işlərində köməklik göstərib, təmizlik işləri aparıb, həyətyanı sahələrdə müxtəlif meyvə ağacları əkiblər. Ahıl vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3378 | 250,0 | 250,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2229 | 157,2 | 157,2 | 100,0 |
| 3. | Babək rayonu | 1782 | 126,2 | 126,2 | 100,0 |
| 4. | Ordubad rayonu | 1082 | 77,0 | 77,0 | 100,0 |
| 5. | Culfa rayonu | 939 | 67,1 | 67,1 | 100,0 |
| 6. | Kəngərli rayonu | 619 | 44,9 | 44,9 | 100,0 |
| 7. | Şahbuz rayonu | 366 | 26,3 | 26,3 | 100,0 |
| 8. | Sədərək rayonu | 191 | 13,5 | 13,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14570 | 1311,3 | 1327,5 | 101,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25156** | **2073,5** | **2089,7** | **100,8** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 156 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 73 min 500 manat olmuş, cəmi 2 milyon 89 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,8 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin mart ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | 431241 | 43879 | 43884 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 4419200 | 474508 | 474551 | 100,0 |
| 3. | Şahbuz rayonu | 831760 | 88734 | 88741 | 100,0 |
| 4. | Ordubad rayonu | 1718736 | 178258 | 178268 | 100,0 |
| 5. | Şərur rayonu | 3182990 | 325855 | 325869 | 100,0 |
| 6. | Babək rayonu | 3403405 | 355253 | 355262 | 100,0 |
| 7. | Culfa rayonu | 1700230 | 172798 | 172799 | 100,0 |
| 8. | Kəngərli rayonu | 1121469 | 114436 | 114436 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11539188 | 1938501 | 1934667 | 99,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **28348219** | **3692222** | **3688477** | **99,9** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 297